# Səadət Şıxıyeva "Nəsimi ili"ndə - gərgin zəhmətin bəhrəsi

**Vüqar Məmmədov,**
*filologiya üzrə fəlsəfə doktoru*




2019-cu ilin Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Nəsimi ili" elan edilməsi görkəmli şairi bütövlükdə ölkədəki elmi, ədəbi və mədəni həyatın mərkəzinə saldı. Bu ilin Nəsimiyə bağlanması isə 2019-u elmi yaradıcılığını dahi Azərbaycan şairinin yaradıcılığının tədqiqinə bağlamış bir alimin fəaliyyəti dövründə ən möhtəşəm bir ilə çevirməyə bilməzdi. Ən möhtəşəm və ən zəhmətli. Zəhmət barədə bir qədər sonra bəhs edəcəyik. Əslində bütövlükdə bu yazımız elə həmin titanik zəhmətin təsvirinə həsr olunub. Bu barədə danışmazdan öncə isə yazımızın qəhrəmanını sizə təqdim edək. Söhbət müasir Azərbaycan nəsimişünaslığının ən dəyərli simalarından biri - AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, institutun "Nəsimi qrupu"nun rəhbəri, filologiya üzrə fəlsəfə doktoru, dosent Səadət Şıxıyevadan gedir.

Əslində Nəsimi yaradıcılığına bağlandığı ilk gündən bu dahi şairin əsərlərini araşdırdığı hər ili, hər günü, onunla bağlı yazdığı hər kitab və məqalə, hətta onların hər səhifəsi, hər cümləsi, söylədiyi hər məruzə Səadət xanım üçün doğma və əzizdir. Ancaq "Nəsimi ili" elan olunması ilə bir alimin üzərinə düşən vəzifələrin həcmini təsəvvür etmək belə çətindir. Alimin bir il ərzində elmi araşdırmalarını aparmaqla yanaşı, kitabını çapa hazırlaması, bir sıra kitabları redaktə etməsi, Nəsimidən tərcümələr etməsi, çoxsaylı məqalələr yazması, müsahibələr verməsi, bir sıra konfranslara qatılması, Şərqşünaslıq İnstitutunda yaradılan "Nəsimi qrupu"nun rəhbəri kimi institutda şairin yubiley ilində bu sahədə görülən bütün işləri koordinasiya etməsi və hamısını cümləbəcümlə, sözbəsöz nəzərdən keçirməsi və bütün bunlar azmış kimi "Nəsimi ili"nə öz töhfəsini vermək istəyən və təşkil etdikləri tədbirlərdə ölkənin aparıcı nəsimişünasını görmək istəyən çoxsaylı müəssisələrin dəvətlərini qəbul etməsi bütün bunların öhdəsindən gəlməyin, özü də yüksək səviyyədə gəlməyin necə mümkün olduğu sualını ortaya çıxarır. Səadət Şıxıyevanın 2019-cu il üçün hesabatını nəzərdən keçirəndə ad və soyada baxmasan, bunun bir şöbənin fəaliyyətini əhatə etdiyini sanarsan və təqdir edərsən. Ancaq bütün bunları həyata keçirən sadəcə bir alimdir – ömrünü, bütün elmi yaradıcılığını Nəsimiyə bağlamış bir zəhmətkeş alım.

Bütün bu deyilənləri təsdiq etmək üçün nəsimişünas, Nəsimi aşiqi Səadət Şıxıyevanın "Nəsimi ili"ndə fəaliyyətini birlikdə nəzərdən keçirək.

İlk öncə Səadət Şıxıyevanın 2019-cu ilin sonunda nəsimişünaslığa bəxş etdiyi dəyərli töhfədən - «Nəsiminin lirikası: irfani məndəricə və poetik zinətlər» kitabından başlayaq. Nəsimişünas alimin monoqrafiyasında şairin poetik irsinin tədqiqi tarixinə nəzər salınır, bu kontekstdə nəsimişünaslıqda mövcud olan mübahisəli məsələlərə münasibət bildirilir, onun irfani düşüncəsinin ifadəçiləri olan başlıca məcaz və motivlər araşdırılır. Şairin söz sənətindəki yerini göstərən və bədii təxəyyülünün imkanlarını açıqlayan poetik fiqurlar ənənə və fərdiyyət kontekstində dəyərləndirilir. Qeyd edək ki, bu kitaba görə Səadət Şıxıyeva 2019-cu ilin yekununda AMEA Humanitar elmlər bölməsinin Fəxri fərmanına layiq görülüb.

Bundan başqa Səadət xanım uzun illərin zəhmətinin bəhrəsi olan və nəsimişünaslıqda xüsusi yeri olacaq “Söz bəhrinin sərrafı” kitabını çapa hazırlayıb. Çapa hazırlanan digər kitab - “Nəsiminin farsca divanı”nın 1-ci cildi Nəsiminin qəzəllərini əhatə edir və qəzəllərin sətri tərcüməsini Səadət Şıxıyeva ilə birgə onun çalışdığı Şərqşünaslıq İnstitutunun “İran filologiyası” şöbəsindəki həmkarları f.ü.f.d. Günay Verdiyeva, Flora Hacıyeva və Fidan Nəsirova ediblər. Adları çəkilən əməkdaşların da daxil olduğu Şərqşünaslıq İnstitutunun “Nəsimi qrupu”nun rəhbəri olan Səadət xanım qrupun bütün işlərini idarə və koordinasiya etməklə yanaşı, qeyd edilən tərcüməni, eləcə də Şərqşünaslıq İnstitutunun əməkdaşı Mahir Həmidovun ərəb dilindən tərcümə etdiyi Əbülfəttah Rəvvas Qalaçının “Hələb yaqutu: İmadəddin Nəsimi (hicri: 771-820 / miladi: 1370-1417). Həyatı, poeziyası, fəlsəfi görüşləri” adlı kitabını da redaktə edib.




Bundan əlavə, S.Şıxıyevanın redaktə etdiyi kitablar sırasında “Mətn və kontekstlər. Nəsiminin bir qəzəlinə dair şərhlər”, “Əbədiyyət günəşi. Nəsimi-650” də yer alır.

Şərqşünas alim həmçinin şairin fəlsəfi traktat olan nəsr əsəri “Müqəddimətül-həqaiq”in transliterasiyasını da tamamlayıb.

Səadət Şıxıyevanın 2019-cu ildə məqalə yaradıcılığı çox zəngin olub. Bu dövrdə alimin nəşr olunan elmi məqalələri sırasında ilk növbədə xaricdə nəşr olunmuş ikisini qeyd edək. Bunlar Türkiyənin Sivas şəhərində işıq üzü görmüş “Nesimi Kitabı”nda “Nəsiminin janr poetikası” və Tacikistanda nəşr edilən “Адаб” jurnalının 2-ci sayındakı “Катли Насими чанбаи сиёси дошт” (“Nəsiminin qətlinin siyasi motivləri vardı”) adlı məqalələrdir.

Azərbaycanda nəşr olunan qəzet və jurnallarda, eləcə də elektron KİV-də oxucuların ixtiyarına verilən məqalələrdən isə “Azərbaycan” qəzetində “Sultan şairlərə örnək şəxsiyyət”, Çapar“ dərgisində “Nəsiminin şeirlərində “gizlənmiş” həyatı (Nəsiminin avtobioqrafik şeirləri)”, “Bərgüşad” nəşrində “Şah Xəndanın şəxsiyyəti mənbə və araşdırmalarda”, azərtag.az-da “Seyid İmadəddin Nəsimi: portretdən cizgilər” və “Kainatla Allah arasında insanın yeri”, “Kaspi” qəzetinin müxtəlif saylarında “Nəsiminin özü və sözünü poetik xatırlatmalar”, “İmadəddin Nəsimi. Müqəddimətül-həqaiq”, “Nəsiminin farsca divanından 6 qəzəl”, VI Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumunın materiallarında “Nəsiminin ideya müxaliflərinə baxışı: arifanə mübahisə və yozumlar”, “Mədəniyyət.az”ın fərqli saylarında “Nəsiminin övliya statusu” və “Nəsiminin mənsur əsərləri”, “Azərbaycan şərqşünaslığı” jurnalında “Nəsimi şeiriyyətinin fərdi özəllikləri”, “İpək yolu” dərgisində “Poetik və irfani təxəyyül işığında Nəsimi şəxsiyyətinə baxış şəkilləri”, “Bir əsrlik Nəsimi araşdırmaları” toplusunda “Seyid İmadəddin Nəsiminin tarixi və əfsanəvi şəxsiyyəti (orta çağ bədii qaynaqları əsasında)”, “Əbədiyyət günəşi” toplusunda “Seyid İmadəddin Nəsimi: portretdən cizgilər”, “Mətn və kontekstlər: Nəsiminin bir qəzəlinə dair şərhlər” toplusunda “Nəsiminin bir qəzəlinin irfani anlam qatları”, “Mənəvi dəyərlər sistemində Nəsimi fenomeni” mövzusunda konfransın materiallarında “Nəsimi yaradıcılığında insanın irfani, dini və dünyəvi dərki”, “Zərrə mənəm, günəş mənəm” toplusunda “Nəsimi o faciəli taledən qaçmaq istəmədi...”, “Nəsimi 650 (araşdırmalar, müsahibələr)” toplusunda “Nəsiminin ədəbi-fəlsəfi irsinə ümumi bir nəzər”, “Nəsimi” biblioqrafiyasında “Ənəlhəq” Mövlana və Nəsiminin yozumlarında”, artkaspi.az saytında “Nəsiminin farsca divanından 12 qəzəl”i qeyd etmək olar.

Bir çox saytlarda Səadət Şıxıyeva ilə Nəsimi şəxsiyyətinə yaradıcılığına dair müsahibələr

yayımlanıb. Bu sırada "O əsəri alimə götürəndə dedim, Nəsiminin deyil..." (teleqraf.com), "Nəsimi iki dəfə evlənib, diri-diri soyulmayıb, oğlu və qızı..." (teleqraf.com), "Səadət Şıxıyeva: «Nəsimi o faciəli taledən qaçmaq istəmədi…» (1905.az), "Саадат Шихиева: «Казнь Насими была политически мотивированным убийством» (vestikavkaza.ru), "Саадат Шихиева: Насими – поэт, мыслитель, просветитель и мученик" (atalar.ru), "Как и за что казнили Насими" (atalar.ru), "Nəsiminin "Sığmazam" qəzəlini ilk dəfə kim səhv oxuyub?" (aznews.az), "Tədqiqatçı-alim: "Nəsimi" filmi Nəsimini anlamağa mane olur" (kulis.az), "Саадат Шихиева об итогах «Года Насими» (atalar.ru), "Sultandan fərman gəldi: boynu vurulsun, dərisi soyulsun" – Nəsimişünas alim şair haqqında yayılan yanlış məlumatlara aydınlıq gətirdi" (avropa.info), "Nəsiminin son sözü kəlmeyi-şəhadət olub" (kulis.az) başlıqları altında yayımlanan müsahibələri qeyd etmək olar.

İndi isə Səadət xanımın iştirak etdiyi beynəlxalq elmi konfranslarla tanış olaq. İl ərzində Səadət Şıxıyeva bir sıra beynəlxalq elmi konfranslarda Nəsimi yaradıcılığı ilə bağlı məruzə edib. Martın 28-də Beynəlxalq Mətbuat Mərkəzində "İmadəddin Nəsimi və özbək ədəbiyyatı" mövzusunda konfransda S.Şıxıyeva "XV əsr özbək ədəbiyyatında Nəsimidən bəhrələnmələr" mövzusunda məruzə edib. Məruzədə qeyd edilib ki, orta əsrlər Özbəkistan ədəbiyyatına nəzər saldıqda özbək şairlərin şeir texnikası, ideya və üslub baxımından Nəsimidən bəhrələndiklərini görmək mümkündür.

Aprelin 19-da tədqiqatçı Azərbaycan İlahiyyat İnstitutu və Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə təşkilatçılığı ilə baş tutan "Mənəvi dəyərlər sistemində Nəsimi fenomeni" mövzusunda beynəlxalq konfransda "Nəsiminin irfani poetikası" mövzusunda çıxış edib. Məruzədə bildirilib ki, İslam irfan ədəbiyyatının ən qüdrətli nümayəndələrindən biri olan Nəsimi poeziyada fəlsəfi fikrin təməlini qoyanlardan biridir. Nəsimi yaradıcılığında sufizm və islami mahiyyətin qabarıq nəzərə çarpdığını qeyd edən S.Şıxıyeva dahi şairin təkcə Azərbaycanın ədəbi-fəlsəfi düşüncəsinin deyil, fəlsəfi-poetik dilinin də inkişafına böyük təsirini vurğulayıb.

İyunun 13-15-də Bakıda keçirilən VI Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumunda S.Şıxıyeva "Nəsiminin ideya müxaliflərinə baxışı: arifanə mübahisə və yozumlar" mövzusunda məruzəsini səsləndirib. Məruzədə ilk dəfə şairin əsərləri əsasında onunla ideya müxalifləri arasında mübahisə yaradan anlayış və düşüncələrdən söz açılıb.

Azərbaycanın İordaniya Haşimilər Krallığındakı Səfirliyi tərəfindən oktyabrın 14-də bu ölkənin ən nüfuzlu ali təhsil ocağında – İordaniya Universitetində "Şərq ədəbiyyatı tarixində Nəsiminin yeri" mövzusunda konfrans keçirilib. Səfirlik tərəfindən konfransa əsas məruzəçi qismində Səadət Şıxıyeva dəvət olunub. Tədqiqatçı "İslami Şərq ədəbiyyatında Nəsiminin yeri" mövzusunda məruzəsində şairin ədəbi şəxsiyyətinin şöhrətindən bəhs edib, onun Balkan ölkələrindən Hindistan və ərəb torpaqlarına qədər böyük coğrafiyada söz ustalarına təsirindən və yaradıcılığının təqdir olunan cəhətlərindən danışıb.




Oktyabrın 24-də Bakı Dövlət Universitetinin yeni tədris korpusunda Sivas Universiteti ilə Bakı Dövlət Universitetinin birgə təşkilatçılığı ilə beynəlxalq "Türk dünyasının mədəniyyət elçiləri: Nəsimi" simpoziumu keçirilib. Simpoziumda səslənən 32 məruzə içərisində Səadət Şıxıyevanın "Nəsiminin janr poetikası" adlı məruzəsi fərqləndirilib və tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Türkiyənin Sivas Üniversiteti "Türk dünyasının mədəniyyət elçiləri" mövzusunda növbəti simpoziumu noyabrın 8-də öz divarları arasında – universitetin "Qazı Bürhanəddin" salonunda keçirib. Simpoziumun özü də məhz bu görkəmli şairin yaradıcılığına həsr olunmuşdu. "Türk dünyasının mədəniyyət elçiləri: Qazı Bürhanəddin" mövzusunda təşkil edilən tədbirdə Səadət Şıxıyeva "Qazı Bürhanəddin və Nəsimi: ideya, məcaz və janr ortaqlığı" mövzusunda məruzə edib. Məruzədə ilk dəfə olaraq, bu iki çağdaş şairin bir-birindən qarşılıqlı təsirlənə biləcəyi faktiki material əsasında diqqət mərkəzinə çəkildi.

S.Şıxıyeva dekabrın 4-6-da Özbəkistanın paytaxtı Daşkənddə keçirilən "Mən əbədiyyət üfüqlərində doğan eşq günəşiyəm" adlı konfransda da iştirak edib. Azərbaycanlı alim konfransda "Nəsimi və XV əsr özbək ədəbiyyatı" mövzusunda məruzə ilə çıxış edib.

Oktyabrın 30-da AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş "Şərq ədəbi-fəlsəfi düşüncəsi kontekstində Nəsimi irsi" adlı respublika elmi konfransı keçirilib. Konfransda Səadət Şıxıyeva "Nəsiminin nəsr yaradıcılığı" mövzusunda məruzəsində daha çox şair, sufi, arif və hürufi kimi məşhur olan Seyid İmadəddin Nəsiminin nəsr sahəsində də qələm təcrübələrinin olmasından danışıb. Bununla belə, Nəsiminin nəsrlə yazılan əsərlərinin (ana dilində "Müqəddimətül-həqayiq", "İnsan", farsca "Afaq və ənfus" adlı risalə) bədii səciyyəli deyil, irfani və hürufilik məzmunlu olduğunu deyən məruzəçi onun mənsur əsərlərindən ən çox diqqət yetirilən, tədqiqata cəlb edilən və müzakirələrə səbəb olan əsərinin "Müqəddimətül-həqayiq" ("Həqiqətlərin başlanğıcı") olduğunu bildirib.

Bundan əlavə, Səadət Şıxıyeva il ərzində Nəsiminin 650 illiyi ilə əlaqədar keçirilən 30-a yaxın seminar və digər tədbirlərdə iştirak və çıxış edib.

İlk öncə bu tədbirlər sırasında iyunun 21-də Azad Brüssel Universitetində Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbiri qeyd etmək gərəkdir. Tədbir Azad Brüssel Universiteti, Şərq Sivilizasiyası və Dilləri İnstitutu, Tətbiqi Dilçilik Mərkəzi və Azərbaycanın Belçikadakı səfirliyinin birgə təşkilatçılığı ilə reallaşıb. Azad Brüssel Universitetinin konfrans zalında baş tutan elmi kollokvium "İmadəddin Nəsimi: Azərbaycan və dünya ədəbiyyatı" mövzusunda təşkil olunub. Tədbirdə Səadət Şıxıyeva "Allah və kainat arasında insanın yeri" mövzusunda məruzə edib. Azad Brüssel Universitetinin professorlarının məruzə ilə bağlı verdikləri suallar mövzunun onlarda doğurduğu marağın göstəricisidir.

Ölkədə "Nəsimi-650" çərçivəsində keçirilən müxtəlif tədbirlərdə S.Şıxıyevanın iştirakını xronoloji ardıcıllıqla izləyək. Martın 15-də Bakı Avrasiya Universitetində ümumi filologiya kafedrasının təşkil etdiyi dəyirmi masada "Nəsiminin şeiriyyəti" mövzusunda məruzə edən alim apreldə Azərbaycan Xalça Muzeyində "Əfsanələrdə yaşayan Nəsimi" adlı mühazirə söyləyib, aparıcı elmi işçisi olduğu AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda "Nəsiminin söz sənətinin özəllikləri" adlı seminardakı məruzəsində Nəsiminin anadilli poeziyamıza gətirdiyi və qəzəlin qəlibindən istifadə ilə ayrıca poetik formaya çevirdiyi bir sıra poetik fiqurların spesifik xüsusiyyətlərindən bəhs edib, Aktyor Evinin səhnəsində Bakı Uşaq Teatrının "Bir teatr, bir festival" layihəsi çərçivəsində "Nəsimi ili – Nəsimi dili" festivalında münsiflər heyətinə daxil olub.

Nəsimişünas alim may ayında qatıldığı tədbirlər sırasında Qərbi Kaspi Universitetinin təşkil etdiyi "Cahana sığmayan şair" adlı bədii-qiraət gecəsində məruzə ilə çıxış edib, Firudin Bəy Köçərli adına Respublika Uşaq Kitabxanası və Səbail rayonunda yerləşən 160 nömrəli tam orta məktəbin təşkil etdikləri "Nəsiminin söz qüdrəti" adlı ədəbi-bədii gecədə iştirak edib, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasında "İmadəddin Nəsimi 650: hürufizm təlimində kamil insan konsepsiyası" adlı ədəbi-bədii tədbirdə "Nəsiminin şəxsiyyəti və faciəli aqibəti" mövzusunda məruzəsində Nəsiminin dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutan əsərlərində daim insanın əzəmətini və insani

məhəbbəti tərənnüm etməsindən, anadilli şeirin humanist ideyalarla daha da zənginləşməsində unudulmaz şairin misilsiz xidmətlərindən söhbət açıb, onun ədəbi şəxsiyyəti ilə yanaşı, siyasi xarakterli fəaliyyətindən və bu sonuncunun onun edam olunmasının başlıca səbəbi olmasından, həmçinin İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialında keçirilən tədbirdə şairin çoxyönlü şəxsiyyətindən bəhs edən məruzəsini dinləyicilərə çatdırıb.

Şərqşünas alimin yay aylarında tədbirlərdə iştirakından 285 nömrəli məktəbdə "Nəsimi - 650 il" adlı tədbirdə məruzəsini, Şamaxıda Azərbaycanın 100 illik tarixi və Nəsimi yaradıcılığı seminarında iştirakını, AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda keçirilən seminarda AMEA Rəyasət Heyətinin elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Sərxan Xavərinin "İmadəddin Nəsimi: sənət və təriqət bütövlüyünün fəlsəfi poeziya zirvəsi" mövzusunda məruzəndən sonra geniş çıxışını, Azərbaycan Gənclər Fondunun maliyyə dəstəyi, "Odlar yurdu" İctimai Birliyinin təşkilatçılığı ilə baş tutan "İmadəddin Nəsimi – 650 illik dəyər" adlı layihəsinin yekun tədbirində məruzəsini qeyd etmək olar.




S.Şıxıyeva bundan sonra oktyabr ayının ikinci yarısında keçirilən tədbirlərdə də fəal olub. O, Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə Ədliyyə Akademiyasında "Nəsimi yaradıcılığında humanizm" adlı ədəbi-bədii tədbirdə "Bəşəri dəyərlər kontekstində Nəsimi şəxsiyyəti" mövzusunda məruzəsində Nəsimi irsinin çoxcəhətliliyindən, təbliğ etdiyi ümumbəşəri dəyərlərdən, şəxsiyyətin azadlığı və humanizm ideyalarından bəhs edib, ADPU-da "Nəsimi: kim idi, yeni tədqiqatlar: nə əslində necədir" adlı elmi seminarda məruzə edib, Nəsiminin 650 illik yubileyi ilə əlaqədar AMEA-nın N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran Regional filialı, Kürdəmir Regional Mədəniyyət İdarəsi ilə birlikdə hazırladığı silsilə tədbirlərin yekunu olaraq İmişli rayon Mədəniyyət Mərkəzində keçirilən ədəbi-bədii məclisdə "Nəsiminin həyatı öz qələmi ilə" mövzusunda çıxışında Allahla təbiətin, idrakla eşqin vəhdəti prinsipinə söykənən, varlığın sirrini səsdə, hərfdə, sözdə görən, xalqı xaliqdən ayrı düşmüş zərrə sayan və o zərrəni öz tamına qovuşdurmağa çağıran bir ideologiyanı füsunkar şeir dili ilə yayan azərbaycanlı şairin şəxsiyyətini, obrazını tamaşaçılara çatdırıb. Tədqiqatçı öz məruzəsində şairin həyat yolunu öz əsərlərindən seçdiyi beytlər əsasında izləməyə çalışıb.

Oktyabrın 31-də Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə "Demokratiyanın İnkişafı Problemləri Mərkəzi" İctimai Birliyinin "İmadəddin Nəsiminin yaradıcılığına həsr olunan tədbirlərin və esse müsabiqəsinin təşkili" layihəsi çərçivəsindəki ilk tədbirində məruzə edən Səadət Şıxıyeva Nəsiminin həyatı haqqında ətraflı məlumat verib, indiyədək bəlli olmayan çoxsaylı faktları açıqlayıb, Azərbaycan poetik dilinin inkişafında böyük təsiri olan, hürufiliyin aparıcı simalarından biri olan şairin Azərbaycan şeir dilini yüksək bir zirvəyə qaldırdığını, öz əsərlərində dövrün mütərəqqi fikirlərini tərənnüm etdiyini bildirib. Eyni layihə üzrə iki həftə sonra keçirilən növbəti tədbirdə Nəsiminin indiyədək təhlil edilməmiş və cəmiyyətə səhv təqdim olunmuş həyatı və yaradıcılığı haqqında geniş məlumat verib.

Bu iki tədbir arasında S.Şıxıyeva Binəqədi rayonu 282-li məktəbin müəllim və şagirdləri qarşısında Nəsimi yaradıcılığına dair məruzə edib, Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı və Abşeron rayon İcra Hakimiyyəti-

nin dəstəyi ilə "Mənəvi dəyərlər sistemində Nəsimi fenomeni" mövzusunda Xırdalanda təşkil olunan dəyirmi masada çıxış edib, Bakı Konqres Mərkəzində Azərbaycan Gənclər Fondunun maliyyə dəstəyi ilə Dünya Gənc Türk Yazarlar Birliyinin həyata keçirdiyi "Nəsimi-650" adlı layihə çərçivəsində "Nəsimi-650" adlı tədbirdə şairin yaradıcılığında mühüm yer tutan hürufilikdən və İmadəddin Nəsiminin öz dövründə insanlara təsir etmə qabiliyyətindən və onu ölümə aparan siyasi səciyyəli səbəblərdən ətraflı söhbət açıb.



Noyabr ayının sonrakı günlərində nəsimişünas alim Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin təşkil etdiyi tədbirdə Azərbaycan ədəbiyyatı və fəlsəfi fikir tarixində İmadəddin Nəsiminin tutduğu yerdən bəhs edib, Dövlət Miqrasiya Xidməti tərəfindən Bakı Gənclər Mərkəzində təşkil olunan ədəbi-bədii gecədə Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində özünəməxsus və layiqli yer tutan Nəsimi yaradıcılığından bəhs edib, onun ədəbi irsinin ideya-mövzu və bədii-estetik cəhətlərinin, bütövlükdə poetikasının şairi orta əsrlərin ən qüdrətli söz sərraflarından birinə çevirdiyini diqqətə çatdırıb.

İlin son ayında S.Şıxıyeva Əmək və Sosial Münasibətlər Akademiyasında ədəbi-bədii tədbirdəki çıxışında dahi şairin həyat və yaradıcılığına işıq salıb, onun poeziyasındakı dərin məna və fəlsəfi mahiyyəti təhlil edib, Bakı Atatürk Mərkəzində həmin mərkəzin Azərbaycan Mədəniyyət Assosiasiyasının "Simürğ" Azərbaycan Kulturoloqlar Cəmiyyəti ilə birgə təşkil etdiyi "İmadəddin Nəsimi və müasir dünya" adlı kulturoloji seminardakı çıxışında Nəsimini müqəddəs Quran dəyərlərinə bağlı bir şəxsiyyət kimi səciyyələndirib. Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kollecində "İmadəddin Nəsimi - 650" adlı informativ tədbirdə məruzə ilə çıxış etdikdən sonra o ərəfədə yeni çap olunmuş "Nəsiminin lirikası: irfani mündəricə və poetik zinətlər" kitabını Kollecə təqdim edərək, tələbələrin ixtiyarına buraxan tədqiqatçı daha sonra paytaxtın 80 saylı orta məktəbində təşkil olunmuş tədbirdə şairin portretini qısa ştrixlərlə yaratmağa çalışıb.

Dekabrdakı tədbirlər sırasında Səadət Şıxıyevanın «Nəsiminin lirikası: irfani mündəricə və poetik zinətlər» kitabının təqdimatını xüsusi qeyd etmək gərəkdir. Tədbir iştirakçıları bu əsəri Azərbaycan və türk dünyasında nəsimişünaslığa töhfə, Nəsimi ilində görülən ən böyük işlərdən biri kimi dəyərləndiriblər.

"Nəsimi ili"nin son günlərində isə şərqşünas alim 123 saylı məktəbdəki tədbirdə Nəsimidən bəhs edib, Dövlət Sərhəd Xidmətinin Akademiyasında keçirilmiş tədbirdə Nəsiminin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verib, Azərbaycan İlahiyyat İnstitutu və Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə keçirdiyi "Mənəvi dəyərlər sistemində Nəsimi fenomeni" mövzusunda konfransın materiallarının təqdimatı tədbirində mütəfəkkir şairin ədəbi və irfani şəxsiyyəti, onun Azərbaycan poetik dilinin inkişafına təsiri barədə məruzə edib, Bakı Avrasiya Universitetində ədəbi-bədii gecədə geniş məruzə ilə çıxış edib.

Bütün bunlar Nəsiminin ən dəyərli tədqiqatçılarından olan bir alimin cəmisi bir ildə – "Nəsimi ili"ndə gördüyü işlərin qısa xülasəsidir. Ancaq Səadət xanım üçün əlində qələm tutduğu hər il "Nəsimi ili"dir. Elmi və ədəbi ictimaiyyətimiz hər zaman bu cəfakeş alimdən ölməz şair haqqında yeni-yeni araşdırmalar, kitablar, məqalələr gözləyəcək və əminik ki, istədiyini də alacaq.